# Qəhrəmanlıq Vətən sevgisindən qaynaqlanır

***"Müharibə bizim üçün uzun illər "Vətən" sözünün, "azadlıq" anlayışının ayrılmaz bir parçası olub. Torpaqlarımızın işğal altında qaldığı müddətdə biz müharibə fikri ilə yatıb, onunla da oyanmışıq. Allaha şükürlər olsun ki, bizə – Azərbaycan əsgərinə müharibəni və şanlı zəfəri nəsib etdi. Doğrudur, xalqımız və müzəffər Ali Baş Komandanımız münaqişənin sülh, danışıqlar yolu ilə həll edilməsini istəyirdi. Lakin hadisələrin gedişatı savaşı bizim üçün zəruri etdi." Bu sözləri bizimlə söhbətində Vətən müharibəsinin iştirakçısı, "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edilmiş Kamran Əlizadə dedi.***

Kamran Telman oğlu Əlizadə 20 may 1996-cı ildə Bakı şəhərində anadan olub. Həqiqi hərbi xidmətini Ağdam rayonunda – cəbhə bölgəsində keçirən Kamran II Qarabağ müharibəsinin başlamasından 1 gün sonra – 2020-ci il sentyabrın 28-də Nərimanov Rayon Hərbi Komisarlığından könüllü olaraq ordu sıralarına qoşulmuşdur. O, Füzuli, Cəbrayıl və Qubadlı rayonlarının azad olunması uğrunda gedən döyüşlərdə fəal iştirak edib.

**Kamran döyüş epizodlarından danışarkən bunları dedi:**

- Biz çox səbir etmişik. Azərbaycan xalqı uzun illər torpaqlarının azad olunacağı günü gözləyib. Hansı ki, bu torpaqlar işğal olunanda mən və mənim kimi müharibədə iştirak edən minlərlə əsgər hələ doğulmamışdıq. Biz uşaqlıqdan eşitmişik ki, torpaqlarımızın 20 faizi işğal altındadır. Cənab Ali Baş Komandanın da hər zaman vurğuladığı kimi, bu döyüşlərdə iştirak edən əsgərlərin çoxu Birinci Qarabağ müharibəsini görməyən cavanlardır. Elə buna görə də Vətən yanğısı, azadlıq arzusu məktəbimizin birinci dərsi, qəlbimizin birinci sevgisi olub.

### Biz bir addım da geri çəkilmədik

-Ümumi olaraq 44 günlük müharibədən bəhs etsək, aydın məsələdir ki, Dağlıq Qarabağın və ətraf rayonların coğrafi mövqeyi ermənilər üçün daha əlverişli idi. Əlbəttə, bu başadüşüləndir. Əks-hücum əməliyyatı başlayandan sonra onlar müdafiə olunan tərəf idi. Döyüşlər zamanı əslində əlverişli tərəf müdafiə olunandır. Ermənilər 30 il müddətində burada möhkəmlənib, yüzlərlə hərbi istehkamlar, beton piltələr, eyni zamanda, çox sayda tələlər hazırlamışdılar. Uzun müddət burada olduqları üçün ərazini də bizə nisbətən daha yaxşı tanımaqları təbii haldır. Biz irəlilədikcə tez-tez ətrafımıza baxırdıq. "Vətən... bu yurdun daşı da, torpağı da bizimdir" –fikrini təkrarlayırdıq. Bu ruh idi bizi azadlığa, zəfərə kökləyən.

Əlbəttə, məlum olduğu kimi, müharibə davam etdikcə şəhidlərimiz, yaralılarımız olurdu. Allah onlara rəhmət eləsin. Yaralılara da şəfa diləyirəm. Amma inandırım sizi ki, mən bir dəfə də olsun hansısa əsgər yoldaşımın gözündə qorxu görmədim. Biz hamımız harada olduğumuzu və nə üçün mübarizə apardığımızı yaxşı bilirdik. Qorxu bizim gözümüzdən də, sözümüzdən də silinmişdi. Düşmənlə bizim aramızda fərq ölçüyəgəlməz idi. Biz haqq yolunda, ədalət uğrunda, ata-baba torpağımız üçün mübarizə aparırdıq.

### Qubadlıda 3 gün artilleriya atəşi altında mühasirədə qaldıq

-Qubadlı uğrunda şiddətli döyüşlər gedirdi. Bildiyiniz kimi, Azərbaycanın Milli Qəhrəmanı Şükür Həmidov da Qubadlıda — öz doğma diyarı uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid oldu. Rayonun azad edilməsi əməliyyatı bir neçə gün çəkdi. Zəngilanın azad edilməsindən sonra növbəti istiqamət Qubadlı idi. Şəhərdə ermənilər xüsusilə güclü istehkamlar qurmuşdular. Buradakı kəndlər, şəhərlər dağıdılsa da, düşmən şəhərin girəcəyində hərbi baza yaratmışdı. Ərazidəki bütün yüksəkliklərdə düşmənin hərbi birləşmələri yerləşmişdi. Ona görə də Qubadlını azad etmək çox çətin idi. İlk növbədə gərək düşmənin istehkamları məhv ediləydi. Bu istehkamlardan biri də Xanlıq qəsəbəsində yerləşirdi. Həmin qəsəbədən onlar baza kimi istifadə edirdilər.

Ermənilər bizi yüksəkliklərdən müntəzəm olaraq atəşə tuturdular. Həmçinin Ermənistan ərazisindən də atəş açırdılar. Onlar hesab edirdilər ki, bu imkandan — əlverişli mövqelərindən istifadə edib bizim qarşımızı ala bilərlər. Döyüşlərin getdiyi bölgədən Ermənistan sərhədinə 5 kilometr məsafə var idi. Onlar həm Ermənistan ərazisindən ağır artileriya ilə, həm də buradakı yüksəkliklərdən müxtəlif növ silahlardan istifadə edərək bizi mühasirəyə almışdılar. Ona görə də Qubadlı əməliyyatı xüsusi peşəkarlıq, fədakarlıq tələb edirdi. Azərbaycan Ordusu bu hünəri göstərdi.

Biz ilk olaraq şəhərə hakim olan yüksəklikləri, strateji cəhətdən önəmli olan təpələri ələ keçirdik, daha sonra ətrafda yerləşən kəndlər, o cümlədən Xanlıq qəsəbəsi, Padar, Sarıyataq, Mahmudlu nəzarətimizə keçdi. Bundan sonra şəhərə daxil olduq və Qubadlı işğaldan azad edildi.



### Dövlət başçısının diqqəti və qayğısı yeni stimul yaradır

Bildiyiniz kimi, iyunun 24-də 76 mindən çox hərbçi orden və medallarla təltif olundu. Onlardan biri də mən idim. İyunun 25-də isə müzəffər Ali Baş Komandan hərbi qulluqçuların maaşlarına 20-60 faiz həcmində əlavə edilməsini nəzərdə tutan sərəncam imzaladı. Əlbəttə, bütün bunlar hərbçilərə dövlət səviyyəsində xüsusi diqqət və qayğının göstəricisidir. Mən xidmətinə yüksək qiymət verilən bütün hərbçilərimiz adından cənab Ali Baş Komandana minnətdarlığımı bildirir və əmin edirəm ki, Vətənin müdafiəsi üçün döyüşə atılmağa həmişə hazırıq.

***Söhbəti qələmə aldı:***
***İmran ƏLİYEV, "Xalq qəzeti"***

Xalq qəzeti.- 2021.- 26 iyun.- S.7.